# Azərbaycan - Qazaxıstan münasibətləri

**Qısa tarixi məlumat:**

İki ölkə arasında diplomatik münasibətlər 30 avqust 1992-ci ildə qurulmuşdur. Qazaxıstan Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyi 9 yanvar 1993-cü il tarixində, Azərbaycan Respublikasının Qazaxıstan Respublikasındakı Səfirliyi 1 mart 2004-cü il tarixində fəaliyyətə başlamışdır. Hal-hazırda Azərbaycan Respublikasının Qazaxıstan Respublikasındakı səfiri Zakir Həşimovdur. Azərbaycan Respublikasının Aktau şəhərindəki Baş konsulluğu 6 sentyabr 2008-ci il tarixində fəaliyyətə başlamışdır. Hal-hazırda Azərbaycan Respublikasının Aktau şəhərindəki Baş konsulu Rəşad Məmmədovdur.

**Yüksək səviyyəli qarşılıqlı səfərlər və görüşlər:**

**Dövlət başçıları:**

**1996-cı il 16-17 sentyabr** - Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev Azərbaycana rəsmi səfər etmişdir.

**1997-ci il 10 iyun** – Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Qazaxıstana rəsmi səfər etmişdir.

**1998-ci il 9-10 iyun** – Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Qazaxıstana işgüzar səfər etmişdir (Türkdilli Dövlət Başçılarının V Zirvə toplantısı və Qazaxıstanın yeni paytaxtı Astana şəhərinin açılış mərasimi).

**2000-ci il 7 aprel** - Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev Azərbaycana rəsmi səfər etmişdir.

**2004-cü il 1-2 mart** – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstana rəsmi səfər etmişdir.

**2005-ci il 24-25 may** – Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev Azərbaycana rəsmi səfər etmişdir.

**2006-cı il 16-17 iyun** – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstana işgüzar səfər etmişdir (Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) 2-ci Zirvə görüşü).

**2007-ci il 7-8 avqust** - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstana rəsmi səfər etmişdir.

**2008-ci il 4-6 iyul** - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstana səfər etmişdir.

**2009-cu il 11 sentyabr** - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstana səfər etmişdir (Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev, Rusiya Federasiyasının Prezidenti Dimitri Medvedyev və Türkmənistan Prezidenti Qurbanqulı Berdımuxamedovla qeyri-rəsmi görüş).

**2009-cu il 2-3 oktyabr** – Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev Azərbaycana işgüzar səfər etmişdir (Türkdilli Ölkələrin Dövlət Başçılarının Zirvə görüşü).

**2010-cu il 18 noyabr** – Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev Azərbaycana işgüzar səfər etmişdir (Xəzəryanı Ölkələrin Dövlət Başçılarının III Zirvə Toplantısı).

**2010-cu il 30 noyabr-2 dekabr** – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstana işgüzar səfər etmişdir (ATƏT-in 7-ci Sammiti).

**2011-ci il 19-20 oktyabr** – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstana rəsmi səfər etmişdir.

**2013-cü il 14-16 avqust** – Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev Azərbaycana işgüzar səfər etmişdir (Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Sammiti).

**2014-cü il 4 iyun –** Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının IV Zirvə toplantısında iştirak etmək məqsədilə Bodrumda səfərdə olan Azərbaycan Respublikası Prezidenti İlham Əliyev ilə Qazaxıstan Prezidenti Nursultan Nazarbayev arasında ikitərəfli görüş keçirilmişdir.

**<u>Hökumət başçıları:</u>**

**1998-ci il 23-24 oktyabr** – Qazaxıstan Respublikasının Baş naziri Nurlan Balqımbayev Azərbaycana rəsmi səfər etmişdir.

**1999-cu il 21-22 oktyabr** - Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə Qazaxıstana rəsmi səfər etmişdir.

**2000-ci il 26-28 aprel** – Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə Qazaxıstana işgüzar səfər etmişdir (Ümumdünya İqtisadi Forumunun (Davos forumu) himayəsi altında keçirilmiş beynəlxalq "Avrasiya – 2000" iqtisadi sammiti).

**2006-cı il 11 yanvar** – Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə Qazaxıstana işgüzar səfər etmişdir (Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin andiçmə mərasimi).

**2006-cı il 5 may** – Qazaxıstan Respublikasının Baş naziri Daniyal Axmetov Azərbaycana işgüzar səfər etmişdir (İqtisadi Əməkdaşlıq Təşkilatının 9-cu Zirvə Görüşü).

**2007-ci il 3-4 aprel** – Qazaxıstan Respublikasının Baş naziri Kərim Masimov Azərbaycan Respublikasına rəsmi səfər etmişdir.

**<u>Xarici İşlər Nazirləri:</u>**

**1999-cu il 18-21 may** – Qazaxıstan Respublikasının xarici işlər naziri Kasımjomart Tokayev Azərbaycana işgüzar səfər etmişdir (İqtisadi Əməkdaşlıq Təşkilatının xarici işlər nazirlərinin görüşü).

**1999-cu il 14-15 sentyabr** – Azərbaycan Respublikasının xarici işlər naziri Tofiq Zülfüqarov Qazaxıstana işgüzar səfər etmişdir (Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə).

**2007-ci il 27-28 fevral** – Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov Qazaxıstana rəsmi səfər etmişdir.

**2010-cu il 14-15 fevral** – Qazaxıstan Respublikasının xarici işlər naziri Kanat Saudabayev Azərbaycana səfər etmişdir.

**2010-cu il 16-17 iyul** – Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov Qazaxıstana işgüzar səfər etmişdir (ATƏT-ə üzv dövlətlərin xarici işlər nazirlərinin qeyri-rəsmi görüşündə iştirak məqsədi ilə).

**2011-ci il 27-28 iyun** – Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov Qazaxıstana işgüzar səfər etmişdir (İslam Konfransı Təşkilatının Xarici İşlər Nazirləri Şurasının 38-ci sessiyası).

**2013-cü il 14-16 avqust** – Qazaxıstan Respublikasının xarici işlər naziri Yerlan İdrisov Azərbaycana işgüzar səfər etmişdir (Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Sammiti).

**<u>Parlamentlərarası əlaqələr:</u>**

**2008-ci il 17-18 iyun** – Qazaxıstan Respublikasının Parlament Senatının Sədri Kasımjomart Tokayev Azərbaycan Respublikasına işgüzar səfər etmişdir (Azərbaycan Respublikası Parlamentinin 90 illik yubileyinə həsr olunmuş tədbirlərdə iştirak məqsədilə).

**2009-cu il 29 sentyabr** – Qazaxıstan Respublikasının Parlament Məclisinin Sədri Ural Muxamedjanov Azərbaycan Respublikasına işgüzar səfər etmişdir (Azərbaycan Respublikasının Milli Məclisində keçirilmiş Türkdilli Ölkələrin Parlament Assambleyasının birinci ümumi iclasında iştirak məqsədilə).

**2011-ci il 27-28 aprel** – Azərbaycan Respublikasının Milli Məclisinin Sədri Oqtay Əsədov Qazaxıstan Respublikasına işgüzar səfər etmişdir (Türkdilli Ölkələrin Parlament Assambleyasının II iclasında iştirak məqsədilə).

**2012-ci il 7-9 iyun** – Qazaxıstan Respublikasının Parlament Senatının Sədri Kayrat Mami Azərbaycan Respublikasına rəsmi səfər etmişdir.

**2014-cü il 19-22 fevral** – Qazaxıstan Respublikasının Parlament Məclisinin Sədri Nurlan Niqmatulin Azərbaycan Respublikasına rəsmi səfər etmişdir.

**2014-cü il 13 iyun** – Qazaxıstan Respublikasının Parlament Məclisinin Sədri Kabibulla Djakupov Azərbaycan Respublikasına işgüzar səfər etmişdir (Türkdilli Ölkələrin Parlament Assambleyası Şurasının beşinci iclasında iştirak məqsədilə). Səfər çərçivəsində Azərbaycan Respublikasının Milli Məclisinin Sədri Oqtay Əsədov ilə Qazaxıstan Respublikasının Parlament Məclisinin Sədri Kabibulla Djakupov arasında ikitərəfli görüş keçirilmişdir.

Azərbaycan Respublikası Milli Məclisində fəaliyyət göstərən Azərbaycan-Qazaxıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Fərhad Qəribovdur.

Qazaxıstan Parlamenti Məclisində fəaliyyət göstərən Azərbaycanla əməkdaşlıq üzrə qrupun rəhbəri Zaqipa Baliyevadır.

**Humanitar sahədə əməkdaşlıq:**

**Səfərlər:**

**14-15 iyul 2004-cü ildə** Azərbaycan Respublikasının mədəniyyət naziri Polad Bülbüloğlu TÜRKSOY təşkilatının XXI iclasında iştirak etmək üçün Astanada səfərdə olmuşdur.
**1-2 iyun 2010-cu ildə** Qazaxıstan Respublikasının səhiyyə naziri Jaksılık Doskaliyev İİV və QİÇS məsələləri üzrə Azərbaycan və Mərkəzi Asiya ölkələrinin V parlamentlərarası konfransında iştirak etmək üçün Bakıda səfərdə olmuşdur.

**29 sentyabr - 1 oktyabr 2011-ci ildə** Azərbaycan Respublikasının səhiyyə naziri Oqtay Şirəliyev İqtisadi Əməkdaşlıq Təşkilatının səhiyyə nazirlərinin III sessiyasında iştirak etmək üçün Astanada səfərdə olmuşdur.

**18-21 noyabr 2012-ci ildə** Qazaxıstan Respublikasının mədəniyyət və informasiya naziri Darxan Mınbay Bakıda səfərdə olmuşdur.

**2014-cü il 4-5 iyun** – Qazaxıstan Respublikasının fövqəladə hallar naziri Vladimir Bozhkonun başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasına səfər etmişdir.

**28 iyun 2014-cü il** - Azərbaycan Respublikasının iqtisadiyyat və sənaye naziri Ş.Mustafayevin rəhbərlik etdiyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AzPromo) prezidenti R.Məmmədovun və 26 şirkəti təmsil edən iş adamlarının da daxil olduğu 45 nəfərlik nümayəndə heyəti "Azərbaycan-Qazaxıstan Biznes Forumu"nda və "MorPort Aktau" Azad İqtisadi Zonasında "Azərsun İstehsal və Logistik Mərkəzi"nin tikintisi ilə bağlı təməlqoyma mərasimində iştirak etmək məqsədilə Aktau şəhərində səfərdə olmuşdur.

**Mədəni və humanitar tədbirlər:**

**8-10 iyun 2012-ci ildə** Qazaxıstanda Azərbaycan mədəniyyət günləri keçirilmişdir.

**18-21 noyabr 2012-ci ildə** Azərbaycanda Qazaxıstan mədəniyyət günləri keçirilmişdir.

**Müqavilə-hüquq bazası:**

Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında 100-dən artıq sənəd imzalanmışdır.

**Azərbaycan Respublikasının Qazaxıstan Respublikasındakı Səfirliyinin rəsmi internet səhifəsi:** http://www.azembassy.kz/

**Azərbaycan Respublikasının Aktau şəhərindəki Baş konsulluğunun rəsmi internet səhifəsi:** http://www.azconsulateaktau.kz/

*Son yenilənmə tarixi: 18.09.2014*